

Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

# 400 çadırla qurulan Dünya Dövləti - Osmanlı İmperatorluğu

***Sultan Süleyman Qanuni Osmanlı imperiyasının 10-cu padşahı və 89-cu İslam xəlifəsidir.30 sentyabr 1520- 5 sentyabr 1566-dakı ölümünə qədər 46 il sultanlıq etmiş və 13 dəfə hərbi səfərə çıxmış,səltənətinin ümumilikdə 10 il 1 ayını hərbi səfərlərdə keçirmişdir.Osmanlı İmperiyası tarixinin ən uzun müddət taxtda oturan,ən uzun müddət səfərdə qalan və ən çox səfərə çıxan sultanıdır.***

***Süleyman Qanuninin taxta keçməsindən qısa bir müddət sonra Şam (Dəməşq) bəylərbəyi Canbərd Qazəli Süleymanın sultanlığını tanımadı və öz hakimiyyətini elan edərək üsyan başlatdı.Fərhad Paşa idarəsindəki Osmanlı ordusu ilə birlikdə Zülqədiriyə əyalətindəki hərbi dəstələrin birləşmiş qüvvəsi Şam yaxınlığındakı Mastaba adlı bölgədə 27 yanvar 1521-ci il tarixində Canbərd Qazəli və qoşunlarını darmadağın etdi.Canbərd Qazəli öldürüldü və üsyan yatırıldı.***

***Süleyman ilk səfərini 18 may 1521-ci il tarixində Macarıstan Krallığı idarəsindəki Belqrada hazırladı.1 avqust günü mühasirəyə alınan şəhər 29 avqust 1521- ci il tarixində təslim oldu.***

Növbəti il Süleyman Aralıq dənizində yerləşən Rodos adasına qurudan səfər təyin etdi.Mühasirəyə qatılacaq olan Osmanlı donanması 1522-ci ildə adanın "Cem Bağçası" körfəzinə gəlib çatdı.Süleymanın da aralarında olduğu ordu qüvvələri 28 iyul günü Mərmərə dənizindən adaya keçirildi.100 min nəfər piyada və 400 gəmidən ibarət Osmanlı ordusunun 6 aydan çox mühasirədə saxladığı bu ada 26 dekabr 1522-ci il tarixində təslim oldu. Adada xristian olaraq yaşayan Cem Sultanın oğlu Murad və Muradın oğulları boğduruldu, xanımı və iki qızı isə İstanbula göndərildi.

I Süleyman taxta çıxdığı 1520-ci il tarixindən başlayaraq Qərbdə Belqrad,Rodos,Boğdan (indiki Moldova) və Macarıstanın böyük hissəsini imperiya torpaqlarına birləşdirdi.Qanuni Sultan Süleyman 1526-cı ildə Mohaç meydan savaşını qazanaraq Macar Krallığı süquta uğratmasından sonra Macarıstan 150 ildən çox Osmanlı İmperyasının tərkibində oldu.

***I Vyana Mühasirəsi. 27 sentyabr1526- 16 oktyabr 1526 Osmanlı İmperiyasının ordusu Sultan Süleyman Qanuninin komandanlığı altında Avstriyanın paytaxtı Vyananı mühairəyə almışdı.Qanuni Sultan Süleyman,120 min kişilik bir ordu ilə Buda şəhərindən ayrılıb Vyananı mhasirəyə alması xəbəri duyulunca,sadəcə Avstriya və Almaniyada deyil,bütün Avropada qorxu başlamışdı.***

Qalanı mühasirə edən Qanuni Sultan Süleyman,davamlı olaraq şəhərin divarlarını dağıtmışdı.Bu sırada Osmanlı gülləsinin dəyməsi ilə qala qarnizon komandanı Kont Salm ölmüşdü. Almaniyadan böyük bir ordunun köməyə gəldiyini öyrənən sultan Süleyman Akıncı qüvvələrini akına göndərərək, Avstriya, Güney Almaniya (Bavyera, Moravya, Bohemya, Yuxar Macarıstan), Slovakiya, Silezya və Slovenya kimi Habsburqlara bağlı ölkələrə hücumlar təşkil edildi.16 oktyabr 1526 –cı ildə Vyana önlərindən geri hərəkət edən ordu orduyi humayun,25 oktyabrda Budaya,16 dekabrda da İstanbula döndü.1529-cu il tarixində Vyananı mühasirəyə alınsa da, müxtəlif səbəblərdən bu mühasirə uğursuz oldu.

Bu uğursuzluqdan sonra Osmanlı İmperatorluğunun ordusu Slovenyaya daxil oldu,bir müddət sonra Habsburq xanədanına məxsus Güns şəhəri mühasirəyə alındı və V Karlın şəhərə köməyə gəlməsi gözlənildi.3 həftə gözlənilsə də kral qorxusundan şəhərə köməyə gəlmədi və 30 avqust 1532-ci il tarixində şəhər ələ keçirildi.İbrahim Paşa burada qalaraq bir neçə qalanı daha ələ keçirmiş,I Süleyman isə Alman səfərini sonlandıraraq 21 noyabr 1532-ci il tarixində İstanbula geri döndü.22 iyun 1533-cü il tarixində Avstriya Hersoqluğu və Osmanlı dövləti arasında İstanbul sülhü bağlandı.Bu anlaşmaya görə Macarıstanın qərbində kiçik hissə Ferdinanda qalmalı və bunun qarşılığında illik 30.000 qızıl vergi verməli idi.

Digər tərəfdən 27 dekabr 1533-cü il tarixində Ələəzair hakimi Xızır rəis (Barbaros) öz donanması ilə birlikdə İstanbula gəlmişdi.Sultana müxtəlif hədiyyələr gətirən və Ələəzair torpaqlarını fəth eyliyən Xızır rəisə "Xeyrəddin" ünvanı verilərək Ələəzair bəylərbəyi təyin edildi.Hələbə gedib gəldikdən sonra,1534-cü il tarixində Kaptan-ı dəryalığa yüksəldildi.Kaptan-ı dərya olaraq ilk səfəri 1534- cü il may ayında cənubi İtaliyaya oldu.Bundan sonra 1534-cü ilin avqust ayında Tunis ələ keçirilsə də, Tunis əmiri Mevlay Həsənin V Karldan yardım istəməsindən sonra 1535-ci ilin yayında geri alındı.





## Osmanlının Dövlət təşkilatı, maarif və mədəniyyəti

Osmanlıların ilk zamanlar paytaxtı Bursa şəhəri olub,sonra Rumeli və Ədirnəni alandan sonra bir müddət hər iki şəhər paytaxt olmuşdur.İstanbulun fəthindən sonra paytaxt İstanbula köçürülmüşdür.

***Hökumət və ya idarə mərkəzinə divan deyilirdi. Divana padşah və sonralar baş vəzir və ya sədirəzəm başçılıq edərdi.***

***Divanın qayda və vəzifələri bunlar idi:***

***1-Vəzire-əzəm və vəzirlər; sonralar vəzire-əzəmə sədrəzəm deyilirdi.Quruluş zamanında bir olan vəzir,Fateh Sultan II Mehmed zamanında dördə çıxdı. Vəzirlər daha çox alimlərdən təyin edilirdi və sədrəzəm padşahın vəkili olub,padşahın möhürü də onda idi.***

***2 -Qaziye əsgərlər və müfti: əvvəlcə bir qaziyye əsgər var idi,sonra bir Rumeli və bir də Anadolu qaziye əsgəri seçildi.Bunlar divanda böyük münaqişələrə baxırdılar.Müfti qanunların şəriətə uyğun olub-olmamasını müəyyən edirdi,onun fitvası olmasa kimsə edam edilməzdi. XVIII əsrdən sonra müftiyə şeyxülislam deyildi***

3 -Dəftərdarlar:Fateh zamanına qədər bir dəftərdar vardı.Ondan sonra biri Rumeli və Anadolu dəftərdarı olaraq, iki dəftərdar seçilirdi.Bunlar maliyyə işlərində məsul olub,dövlətin gəlir və xərclərini və büdcəsini hazırlayırdılar.

4 -Nişançı:Bir nəfər idi və qeydetmə işlərindən məsul idi.Fateh II Mehmed zamanına qədər divan padşahın yanında toplanırdı,sonralar sədrəzəmin başçılığı altında və yenə divanda toplanırdı.Sədrəzəmin idarəsinə bab-ali deyilirdi.

Osmanlı imperatorluğu mərkəzə bağlı əyalətlərə bölünmüşdü və hər əyalət bir neçə sancağı və hər sancaq bir neçə qəza və kəndi əhatə edirdi.Anadolu əyalətləri Anadolu bəylərbəyinə,Rumeli əyalətləri isə Rumeli bəylərbəyliyinə tabe idi.

Hər sancağın bir məsulu və hər qəzanın rəisi (qazi) və bir də subaşısı (qoşun rəisi) var idi.





Osmanlı dövlətində torpaq üzərində çalışanın mülkü idi.Torpaqdan yığılan məhsullarının onda birini dövlətə verərdilər. Osmanlı İmperatorluğunda təhkimçilik idarə üsulu heç zaman olmamışdı.

Fəth edilən torpaqlar beş qismə ayrılırdı :1-dirlik, 2-vəqf,3-ocaqlıq,4-yurdluq,5-müqatiə.

Dirilik:maaş əvəzi məmurlara (sipahi) verilən torpağa deyilirdi və gəlir miqdarına görə üç qismə ayrılırdı: xass,ziyamət və timar.

Xass- illik gəliri yüz min akçadan çox olan dirliklərə deyilirdi.Bunlar padşahlara və ailələrinə, şahzadələrə, divan üzvlərinə, bəylərbəyi və sancaq bəylərinə verilirdi. Xass sahibləri diriliklərinin beş min akçasını öz keçimləri üçün,qalanını əsgər bəsləmək üçün xərc edərdilər.

***Ziyamət-illik gəlirləri 20 min akça ilə yüz min akça arasında dirliklərə deyilirdi.Bunlar xass sahibləri kimi vergi ödənilməsinə əməl edirdilər.***

***Timar-illik gəliri üç min akça ilə 20 min akça arasında olan dirliklərə timar deyilirdi.Timar sahibləri illik gəlirlərinin üç min akçasını öz məsrəflərinə və qalanını da əsgər bəsləməyə xərc edərdilər.***

***Vəqf-fəth edilən ərazinin bir qismi ümumi xəzinə işlərinə ( mədrəsə, came və s.) ayrılır və bunlara vəqf ərazisi deyilirdi.***

***Ocaqlıq ərazi-qala gözətçiləri və gəmiçilərə ayrılan yerlər idi.***

***Müqatiə-dövlət əlində qalan yerlərə deyilirdi.***

Fateh II Mehmed zamanında ilk dəfə bosniyalılar və sonra albanların əksəriyyəti islamı qəbul etdi. Osmanlı dövlətində təlim və tərbiyə islam dininə dayanırdı. Əsaslı təlim müəssisələri mədrəsələr idi.Bunlar məscidlərin yanında tikilirdi.Mədrəsələrdə təlim iki şöbəyə ayrılırdı: birinci şöbədə dini dərslər: Quran, kəlam, təsvir, hədis, fəlsəfə və məntiq oxudulurdu; ikinci şöbədə nücum, hesab və tibb dərslər oxunurdu.

***Bu mədrəsələrdən başqa,bir də dövlət məmuru hazırlayan məktəb-mədrəsə var idi.Bu məktəb dövlət məmurları yetişdirmək üçün qurulmuşdu.***

***Osmanlı memarlığı Səlcuq və Bizans memarlığının təsiri altında inkişaf etdi və Osmanlı türk memarlığı adını aldı.***

***XIV əsrdə İznik, Bursa və Ədirnədə böyük məscidlər, mədrəsələr, xəstəxanalar və saraylar tikdirildi. XV əsrdə memarlığa daha çox əhəmiyyət verildi.Bu əsrdə Bursada tikilən Ulu came,Yaşıl came və Yaşıl türbə I Mehmed Çələbi zamanının əsərləridir.***

**(ardı gələn sayımızda)**